# İstanbulda Azərbaycanın zəngin mədəni irsi tanıdılıb

**İstanbulun Boğaziçi Universitetində Azərbaycanın zəngin mədəni irsini tanıtmaq məqsədilə tədbir keçirilib.**




AZƏRTAC xəbər verir ki, mərasim Boğaziçi Universiteti, ölkəmizin Türkiyədəki səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi, İstanbuldakı baş konsulluğumuz, eləcə də Xaricdə Yaşayan Türklər və Qohum Topluluqlarının (YTB) əməkdaşlığı çərçivəsində təşkil olunub.

Türkiyənin Koç, Sabancı, İstanbul Teknik, Medipol kimi aparıcı universitetlərində təhsil alan azərbaycanlı tələbələrin təşəbbüsü ilə hazırlanan tədbirin layihə koordinatorları Boğaziçi və Koç universitetlərinin Kompüter mühəndisliyi fakültələrinin tələbələri Şəms Humay Nəsibzadə və Akif Əkbərovdur.

Azərbaycanın zəngin və çoxşaxəli mədəni irsinin dünyaya tanıdılması, qardaş Türkiyə ilə mədəniyyətlərarası əlaqələrin daha da möhkəmləndirilməsi məqsədini daşıyan mərasim mədəniyyətimizin zənginliyini və estetik dəyərlərini əhatəli şəkildə əks etdirib.

Tədbirdə Azərbaycanın qədim tarixə malik milli musiqisi, rəqsləri, geyimləri, xalq sənət nümunələri və ədəbiyyatı geniş təqdim olunub. Proqram çərçivəsində canlı ifalarda tar və kamança kimi milli musiqi alətlərinin müşayiəti ilə muğam və xalq mahnılarımız səsləndirilib, "Nazeləmə", "Uzundərə" kimi rəqslərimiz nümayiş edilib.

Azərbaycan. - 2025.- 18 may (№ 102).- S.10.